AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ




CƏFƏR CABBARLI ADINA RESPUBLİKA GƏNCLƏR KİTABXANASININ

İNFORMASİYA-BİBLİOQRAFİYA ŞÖBƏSİ

# ŞAİQANƏ YAD ET



## ABDULLA ŞAİQ-135

BİBLİOQRAFİK GÖSTƏRİCİ

Bakı-2016

**Yürüyəlim irəli, haydı millət əsgəri,**
**Keçmişimiz şan, zəfər,durmayalım biz geri.**
**Yıldırımlı gözünüz qan ağladır düşmənə,**
**Qorxaq, alçaq, xainin bu meydanda işi nə?!**
**Altun ordu, irəli! Dağlar, daşlar aşalım!**
**Türk qafasında qorxu yuvalamaz, düşmənim!**
**Həp dənizdən yapılmış ruhum, qəlbim, bədənim.**
**Süngümüzün ucundan damar qətrə-qətrə qan,**
**Hüriyyətdən, vətəndən ölüncə keçməm, düşmən!**
**Dalğaların üstündə şanlı Turan bayrağı,**
**Alovlanır qəlbimdə, “Ərkənəkon” ocağı.**
**Haydı, yola çıxalım, haqsızlığı yıxalım.**
**Turanda gün doğunca zülmətlə çarpışalam!**

**Abdulla Şaiq**

# TƏRTİBÇİDƏN

Azərbaycan ədəbiyyatı tarixində şair, yazıçı, dramaturq, ədəbiyyatşünas, görkəmli maarif və mədəniyyət xadimi kimi tanınan Abdulla Şaiq Azərbaycan uşaq ədəbiyyatının yaradıcılarından biri, milli uşaq teatrının banisidir. Ömrünü xalqın maariflənməsinə həsr edən yazıçı zəngin bir yaradıcılıq yolu keçərək ən çox uşaqlar və gənclər üçün yazıb-yaratmışdır ki, həmin əsərlər məktəblərdə indi də tədris edilir. Onun uşaq və gənclər üçün yazdığı əsərlər lirik şeirlərdən, mənzum və mənsur hekayələrdən, nağıllardan, təmsillərdən və kiçik pyeslərdən ibarətdir. Kiçikyaşlı uşaqlar üçün yazdığı "Quzu", "Xoruz", "Keçi", "Uşaq və dovşan" və b. şeirləri bu gün də dillər əzbəridir. "Tıq-tıq xanım", "Yaxşı arxa", "Tülkü həccə gedir" kimi mənzum hekayə və nağılları isə milli uşaq ədəbiyyatımızın qızıl fonduna daxildir.

Bu il Azərbaycan ədəbiyyatının inkişafında böyük əməyi olan Abdulla Şaiqin anadan olmasının 135 illiyi tamam olur. Yazıçının yubileyi respublikamızın bir çox mədəniyyət ocaqlarında, o cümlədən kitabxanalarda geniş şəkildə qeyd olunur.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının İnformasiya-biblioqrafiya şöbəsi yazıçının yubileyi münasibətilə "Şaiqanə yad et" adlı biblioqrafik vəsait tərtib edib. Vəsait A. Şaiqin öz əsərlərini və onun həyat yaradıcılığı haqqında kitab və dövri mətbuatda çıxan məqalələri, cəmi 179 ədəbiyyatı əhatə edir. A. Şaiqin əsərləri vəsaitdə nəşr ili üzrə xronoloji ardıcıllıqla, haqqında olan kitablar müəllif və sərlövhəsinə görə əlifba üzrə, dövri mətbuatda çıxan məqalələrin təsvirləri isə əks xronoloji qaydada (bu gündən dünənə) verilib.

Vəsaitdə aşağıdakı bölmələr var:

- Tərtibçidən;
- Abdulla Şaiqin həyat və yaradıcılığı;
- Abdulla Şaiqin həyat və yaradıcılığına dair əsas tarixlər;
- Görkəmli adamlar Abdulla Şaiq haqqında;
- Abdulla Şaiqin əsərləri;
- Tərcümələri;
- Abdula Şaiqin həyat və yaradıcılığı haqqında:
  kitablarda ;
  dövri mətbuatda;
- Abdulla Şaiqin əsərləri və haqqında rus dilində
- Abdulla Şaiq haqqında internet saytlarında

Vəsait Abdulla Şaiqin əsərlərini, həyat və yaradıcılığına dair materialları təbliğ etmək məqsədilə tərtib edilib və tam mətni kitabxananın www.ryl.az saytında yerləş-dirilib. Bütün oxucu qrupları vəsaitdən istifadə edə bilərlər.

I

**Sənət yollarında dayandın mətin,**
**Ölümü şeirinlə öldürdün, nə qəm.**
**Neçə sənətkarın, neçə alimin**
**Gözünə nur verdin, əlinə qələm.**

**Bəxtiyar Vahabzadə**

## Abdulla Şaiqin həyat və yaradıcılığı

Azərbaycanın ədəbi-ictimai fikir tarixində maarif və mədəniyyət xadimi, şair, nasir, dramaturq, ədəbiyyatşünas, tərcüməçi kimi tanınan Abdulla Şaiq Talıbzadə 24 fevral 1881-ci ildə Tiflisdə ruhani ailəsində doğulmuşdur. Balaca Abdulla ilk təhsilini ruhani idarəsinin altı sinifli məktəbində (1889-1893) və Xorasanda Türkiyədən gəlmiş maarifsevər Yusif Ziyanın məktəbində (1894-1899) almışdır. Uşaqlıqdan Şərq ədəbiyyatına, şeirə, sənətə həvəs göstərmiş, 1900-cü ilin payızında Xorasandan Tiflisə qayıtmış və bir neçə aydan sonra ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Həmin ildəcə rəsmi dövlət komissiyası qarşısında imtahan verib, müəllimlik hüququ qazanmış, rus-tatar (türk) və realnı məktəblərdə ana dili və şəriət dərslərini aparmışdır. Az vaxt içində ictimai-ədəbi mühütlə, Nəriman Nərimanov, Əlibəy Hüseynzadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Abbas Səhhət, Əbdürrəhimbəy Haqverdiyev, Həsənbəy Vəzirov, Firidun bəy Köçərli, Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Süleyman Sani Axundov, Seyid Hüseyn, Hüseyn Minasazov kimi dövrün məşhur ədəbi şəxsiyyətləri ilə tanış olub, taleyini ömürlük ədəbiyyata, məktəbə və maarif işinə bağlamışdır. Ədəbi-pedaqoji fəaliyyətə can atan cavan Şaiqin fikri tərbiyəsinə, türkçülük ideyalarına yiyələnməsində qardaşı Yusif Ziyanın güclü təsiri olmuşdur. On altı yaşında bədii tərcümə və füzuliyanə qəzəllərlə yaradıcılığa başlayan A.Şaiq Bakıda Avropa, türk və rus ədəbiyyatını da öyrənib, ən çox klassik ənənələrə, türk romantizminə dayanıb, «Füyuzat» ədəbi məktəbi ilə ilgilənməklə, ara-sıra «Molla Nəsrəddin» ədəbi məktəbinin təsiri ilə əsərlər də yazıbdır.Yeni yüzilliyin əvvəllərindəki inqilab hərəkatı A.Şaiqin dünyagörüşündə bir dönüş yaradır. İnqilabı «Azadlıq ulduzuna», «Hürriyyət pərisinə» bənzədən şair onun sönməsindən kədərlənirsə («Niyə uçdu?», «Bir quş», «Vətən» və s.), həyati, siyasi olayları öyrəndikcə «Bir zaman məhv olur şu istibdad» inamına gəlir. Onun romantik ruhlu humanizmi, demokratizmi «Həpimiz bir günəşin zərrəsiyiz» (1910) şeirində daha aydındır. «Köç», «Dağlar sultanı» kimi əsərləri isə Azərbaycan təbiətinin romantik simfoniyası kimi səslənir.

Azərbaycanda məktəb və maarif işinin yüksəlişi, milli uşaq ədəbiyyatının, uşaq dramaturgiyasının yaranması birbaşa A.Şaiqin adı ilə bağlıdır. O, Azərbaycan müəllimlərinin I, II qurultaylarının hazırlanmasında komissiya üzvü kimi böyük iş görmüş, «Uşaq çeşməyi» (1907), «Uşaq gözlüyü» (1909), «Gülzar» (1912) və başqa yeni tipli dərsliklər yaratmışdır. A.Şaiq qüdrətli sənətçi, azadlıq carçısı, gözəllik aşiqi kimi Azərbaycan Demokratik Cümhuriyyəti dövründə həvəslə çalışmışdır. Məktəblərin milliləşdirilməsi məsələsi haqqında rəsmi dövlət qəzeti «Azərbaycan»da ardıcıl çıxış edən, milli təhsili ilk həyata keçirən məhz A.Şaiq olmuşdur. Bu illərdə buraxdığı «Milli qiraət», «Ədəbiyyat dərsləri» «Türk çələngi» (1919), «Türk ədəbiyyatı» (1920) kimi dərsliklərindən Azərbaycan gəncliyinin böyük bir nəsli dərs almış, «Müsavat» hakimiyyəti ilərində yaratdığı «Türk ədəbi mərkəziyyət firqəsi», «Müsavata ithaf marşı», «Yeni ay doğarkən», «Vətənin yanıq səsi», «Arazdan Turana» kimi silsilə şeir və poemaları poeziyamıza yeni ab-hava gətirmişdir.

O, 1906-cı ildən milli uşaq poeziyasının incilərini yaratmış, şeirləri "Dəbistan" və "Məktəb" uşaq-gənclər toplularında işıq üzü görmüşdür. "Nicat" cəmiyyətinin idarə heyətinə üzv seçilmiş, ədəbi-bədii problemlərlə, maarif və məktəb işləri ilə, çoxcəhətli ədəbi, pedaqoji və elmi fəaliyyətlə məşğul olmuşdur. İnqilabdan əvvəlki yaradıcılığında romantizm meyilləri duyulmuş, lirik şeirlərində azadlıq, tərəqqi arzuları, nikbinlik, mübariz ruh əsas yer tutmuşdur. "Məktub yetişmədi" (1908) hekayəsi və "Əsrimizin qəhrəmanları" (1913-1918) povestində iqtisadi-ictimai bərabərsizlik, xalqın ağır və faciəli həyatı əks edilmişdir. "Bizimdir" (1923), "Azadlıq pərisinə" (1925), "Zərbəçi" (1933), "Döyüş nəğməsi", "Vətən nəğməsi" kimi şeirlərində yeni həyatın, vətənin, əməkçi insanların tərənnümünə xüsusi yer verilmişdir. Azərbaycan nəsrində tarixi roman janrının inkişafında mühüm addımlardan olan "Araz" (1938) romanında Bakı proletariatının inqilabi mübarizəsi, "İldırım" dramında (1926) Azərbaycan kəndində baş verən ictimai toqquşmalar təsvir olunmuşdur. Abdulla Şaiq Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndələrindəndir. "Tülkü həccə gedir", "Yaxşı arxa", "Tıq-tıq xanım", "Şələquyruq" mənzum hekayələrində gözüaçıqlıq, təvazökarlıq, doğruçuluq, təbiəti sevmək təbliğ edilir. "Gözəl bahar", (1910), "El oğlu" (1939), "Vətən" (1941), "Nüşabə" (1945), "Ana" (1946) pyesləri gənc nəsildə vətənpərvərlik tərbiyəsinin aşılanmasına həsr olunmuşdur. "May nəğməsi", "Top oyunu", "Bənövşə", "Qərənfil", "Bülbül" kimi uşaq şeirləri, nağıl və poemaları bu gün də öz dəyərini saxlamışdır. Onun poeziyası qəhrəmanlıq, xəlqilik, vətənpərvərlik və gözəllik

poeziyası, uşaq şeirləri elə o zamandan dərslik, proqram və oxu kitablarının bəzəyi olmuşdur. O, həm də 1910-cu ildə yazdığı "Gözəl bahar" pyesi ilə milli uşaq teatrının özülünü qoymuşdur. Abdulla Şaiqin xalq maarifi sahəsində mühüm xidmətləri olmuş, "Uşaq çeşməyi" (1907), "Gülzar" (1912), "Milli qiraət kitabı" (1922), "Qiraət kitabı" (1924) və s. dərsliklər yazmış, ali məktəblərdə mühazirələr oxumuşdur. Görkəmli ədib tənqid və ədəbiyyat- şünaslıq sahəsində də çalışmış, M. Füzuli, İ. Nəsimi, M.P. Vaqif, M.F. Axundov, M.Ə. Sabir, A. Səhhət, H. Cavid, M. Hadi haqqında elmi məqalələr dərc etdirmişdir. Dünya ədəbiyyatı ilə yaxşı tanış olmuş, rus və fars dillərini mükəmməl bilmiş, Nizami, Şekspir, Defo, Krılov, Puşkin, Lermontov, Qorki və başqalarından tərcümələr etmişdir.

Ömrünün altmış ilini xalqının xidmətinə yönəldən A.Şaiq bir ədəbiyyatşünas-alim, bir çox dünya ədəbiyyatı örnəklərini dilimizə çevirən sənətçi, xalq elçisi, el ağsaqqalı kimi də sayılmış, ən ali məclislərə seçilmiş, mükafatlandırılmış, orden və medallarla təltif edilmiş, ədəbiyyat sahəsindəki fəaliyyətinə görə 1940-cı ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. 1974-cü ildə Azərbaycan Dövlət Kukla Teatrına Abdulla Şaiqin adı verilmiş, ev-muzeyi yaradılmış, Bakı küçələrindən biri və bir neçə kitabxana onun adı ilə adlandırılmışdır. Ən böyük mükafatı isə xalqın, millətin ona olan sevgisidir.

Abdulla Şaiq 24 iyul 1959-cu ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

# II

## Abdulla Şaiqin həyat və yaradıcılığına dair əsas tarixlər:

1881- 25 fevral – Abdulla Şaiq Talıbzadə Tiflisdə ruhani ailəsində anadan olmuşdur.
1889 – 1893 - Tiflisdə 6 sinifli şəhər məktəbində oxuyur.
1893 may – Abdulla Şaiq anası Mehri xanımla Xorasana gedir.
1894 - 1899 – Xorasanda yeni üsulla açılmış Yusif Ziya məktəbində oxuyur.
1900 – Xorasandan Tiflisə qayıdır.
1901, 22 aprel - Bakıda üçüncü gimnaziyada N.Nərimanovun iştirak etdiyi komissiya qarşısında imtahan verir, ana dili müəllimi hüququ alır.
1901, 5 noyabr – rus tatar məktəbində ana dilindən dərs deyir.
1902, sentyabr – altı sinifli şəhər məktəbində ana dili müəllimi işləyir.
1903 - 1906 – altı sinifli Sabunçu məktəbində əlavə dərs deyir.
1905 - M.Ə.Sabir, A.Səhhət, M.Hadi, H.Cavidlə tanış olur. III kişi progimnaziya-sında ana dili müəllimi işləyir.
1906 - 1907 – ilk mətbu şeiri “Laylay” “Dəbistan” jurnalında çıxır.
1908 - Tiflisdə “İkinci il” dərsliyi çıxır. “Məktub yetişmədi”, “Hüriyyət pərisinə”, “Yad et” və s. əsərlərini yazır.
1909 - R.Botşalın “Qafqaz çiçəyi” pyesini təbdil edir.
1910 – “Köç”, “Daşqın”, “İntiharmı, yaşamaqmı,”, “Gözəl bahar”, “Hamımız bir günəşin zərrəsiyik” əsərlərini yazır. “Qafqaz çiçəyi” “Nicat” truppası tərəfindən tamaşaya qoyulur.
1911 - Həyat yoldaşı Raziyə vəfat edir. “Dəftəri-hicran”, “Şair və qadın”, “Bədbəxt ailə” əsərlərini qələmə alır. Əsasən realni məktəbdə çalışır.
1912 – “Gülzar” dərsliyi çapdan çıxır. “Nicat” qəzetində Sabirə həsr olunmuş məqalə və şeiri çıxır.
1913 - “Qafqaz çiçəyi” pyesi Azərbaycanda və Dağıstanda tamaşaya qoyulur. N.Vəzirovun ədəbi fəaliyyətinin 40 illiyi münasibətilə şeir, “Əkinçi və xan” və s. əsərlərini yazır. “Şələquyruq” və “Murad” kitabçaları çıxır.
1914 - “Dan ulduzu”, “Simurq quşu” şeirlərini yazır. Birinci dünya müharibəsi ilə əlaqədar olaraq “Əsrimizə xitab” və “ İblisin hüzurunda” əsərlərini tamamlayır.
1915 - Yeni realni məktəbdə çalışır. Ruscadan “Danışan kukla” uşaq pyesini təbdil edir.
1916 - Dağıstanda “Uşaq bağçası” açmağa çalışır. Suramidə F.Köçərli ilə görüşür. Nalçikdə qabaqcıl rus yazıçıları ilə tanış olur.
1917 - “Açıq söz” qəzetinin 8 aprel nömrəsində çarizmin devrilməsi, məclisi-müəs-

sisanın çağırılması münasibətilə yazdığı "Xanım əfəndilər!" məqaləsi çıxır.
1918 - İlk dəfə olaraq Şərq realni məktəbin nəzdində milli siniflər yaradır. "Əsrimizin qəhrəmanları" romanını tamamlayır.
1919 - "Ülkər", "O sən idin", "Həyat sevməkdir" və s. şeirlərini yazır. "Milli qiraət", "Müntəxəbat", "Türk çələngi", "Ədəbiyyat dərsləri" dərslikləri buraxılır.
1920 may- Şahzadə xanım Mirzəbəyova ilə evlənir. Altıaylıq kurslarda və birillik Şərq fakültələrində dərs deməyə başlayır. "Türk ədəbiyyatı" dərsliyi çap olunur.
1921- Rayonlarda mədəni-maarif işlərinin təşkilinə kömək üçün Göyçay, Qaramər-yəm, İncə, Diyallı kəndlərinə gedir. Ali Pedaqoji İnstitutun yaradılmasında fəal iştirak edir. Burada Şərq ədəbiyyatından dərs aparır."Gənclik marşı", "Üsyan et", "Şərq gözəlinə" şeirlərini , "Həqiqətə dair", "Yazıya pozu yoxdur" pyeslərini yazır. Bu əsərlər "Tənqid-təbliğ" teatrında oynanılır. "İkinci il" dərsliyi çap olunur.
1922- Qızı Altunsaç vəfat edir."Qızım Altunsaça", Bizimlədir" şeirlərini qələmə alır. "Milli qiraət" kitabı çap edilir.
1923, dekabr – Şaiqin ədəbi-pedaqoji fəaliyyətinin 20 illik yubileyi keçirilir. Pedaqoji İnstitutun nəzdindəki məktəbə "Şaiq nümunə məktəbi" adı verilir. Burada və 18 №-li məktəbdə dərs deyir.
1924- Ali Pedaqoji İnstitutun üç illiyi münasibətilə "İnstitut və Azərbaycan" məqalə-sini, "Azadlıq pərisinə", "Bir az da atəş qat", və s. əsərlərini yazır. "Qiraət kitabı", "İkinci il" təkmilləşmiş şəkildə çap olunur.
1925- Yeni türk əlifbası komissiyası "Ubhfən kitabı"nı buraxır. " Maarif və mədəniyyət" jurnalında M.F. Axundovun "Aldanmış kəvakib", H.Cavidin "İblis" əsərləri haqqında məqalələri çıxır.
1926- H.Zeynallı, İ.Hikmət, A.Musaxanlı və Mustafazadə ilə birlikdə "Türk dili və ədəbiyyatı proqramı"nı hazırlayır. "Sənət nəğməsi", "Gözlər", "Əməkçi qadınlara" şeirlərini yazır. "Ədəbi parçalar məcmuəsi"ndə "Molla Pənah Vaqif" məqaləsi çıxır.
1927– "Qaragilis xatirəsi"ni yazır. "Maarif işçisi" jurnalında "1905-ci il inqilabından sonra yetişmiş ədəbiyyatımıza bir nəzər" adlı məqaləsi çıxır. "İldırım" pyesi kitab halında çap olunur.
1928- "Əsəbi adam", "Əzim dayı" hekayələrini, silsilə uşaq şeirlərini yazır. H. Zey-nallı, A. Musaxanlı, C. Əfəndizadə ilə hazırladığı "Ədəbiyyatdan iş kitabı"nın I hissəsi çap olunur.
1929 – Zaqafqaziya yazıçılarının dostluq səfərlərində iştirak edir. Pedaqoji texni-

kumun 10 illiyi münasibətilə “Gənc müəllimlərə”, “Üç lövhə”, “Gənclərə” şeirlərini yazır.

1930- 1927-ci ildə Bünyadov, Şamilov, Beysovla buraxdığı “Dördüncü il”in dördüncü nəşri çap olunur.

1932- 1931-ci il Maarif Nazirliyinin məsləhəti ilə Şuşa Pedaqoji texnikumunda müəllim işləyir.”Oktyabr”, “İlham qaynağım”, “O baxışlar” və s. əsərlərini yazır. Anası vəfat edir. S.Vurğunla qohum olur.

1933 - Xəstəliyinə görə Bakıya qayıdır. Firdovsinin “Şahnaməsi”ndən “Məzdək və Qubad” hissəsini tərcüməyə başlayır.”Eşşək üstə səyahət” kitabçası çıxır.

1934 - İki il işlədikdən sonra Azərbaycan Sənaye İnstitutundakı dərsləri buraxır. “Cocuq şeirləri” və “Oyunçu bağalar” kitabları çap olunur. Xəstəliyinə görə pedaqoji fəaliyyətdən uzaqlaşır. Şekspirin “Maqbet” əsərini tərcümə edir.

1934 -1939 - Azərnəşrin uşaq ədəbiyyatı şöbəsində çalışır.

1935 - Gürcüstanda poeziya bayramında iştirak edir. “Pravda” qəzetinin çağırışına cavab olaraq yazılan ”Xasay” povesti Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 15 illiyi ilə əlaqədar keçirilən müsabiqədə mükafat alır.

1936 – APİ-də Şərq ədəbiyyatından saat hesabı ilə dərslərini davam etdirir. Nizaminin “İsgəndərnamə”sinin tərcüməsi ilə məşğul olur. “Tapdıq dədə” poemasını yazır. İlk dəfə “Seçilmiş əsərləri” çapdan çıxır. Rus dilində “Hekayələr” kitabı çap olunur.

1937 – “Araz” romanını tamamlayır. “Xasay” pyesi GTT-da oynanılır. ”Qoçpolad” poemasını yazır.

1938 – “Ovçu məstan” poemasını yazır. Nizaminin yubiley komissiyasına üzv seçilir.

1939 – Gənc Tamaşaçılar Teatrının 10 illiyi münasibətilə keçirilən müsabiqədə “Xasay” pyesi ilin ən yaxşı tamaşası hesab edilir. Şaiq teatra ədəbi hissə müdiri dəvət edilir. Teatrla bərabər Moskvaya qastrol səfərinə gedir. “Eloğlu” pyesini bitirir.

1940 -Yeni əlifba komissiyasına üzv seçilir. Moskvaya Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünə gedir. Çaykovski adına Dövlət konservatoriyasında, Yazıçılar İttifaqında görüşlərdə olur.. “Eloğlu”nun tamaşası keçirilir. “Araz” romanı çapdan çıxır. Əməkdar İncəsənət xadimi adı alır.

1941-1943-“Vətən” pyesini yazır və tamaşaya qoyulur. “Ana yurdum”, “Zəfər bizimlədir”, “Vətən nəğməsi” və s. şeirlərini qələmə alır.

1944–İ.A.Krılovun anadan olmasının 100 illik yubileyi münasibətilə şair silsilə tərcümələr edir. “Yarpaqlar və köklər”, “Cırcırama və qarışqa” təmsillərinin tərcüməsi mükafata layiq görülür.

1945 – “Zəfər nəğməsi”, “Zəfər müjdəsi”, “Ata öyüdü” , “Ana öyüdü”,

şeirlərini yazır. "Ana" pyesi Gənc Tamaşaçılar Teatrında səhnəyə qoyulur.

1946 - SSRİ Ali Sovetinin deputatı seçilir. Anadan olmasının 65 illiyi münasibətilə Lenin ordeni ilə təltif olunur. "Literaturnaya qazeta"da qocaman deputatın təəssüratı dərc olunur. "Nüşabə" dramı M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulur.

1947 –Nizaminin 800 illik yubileyində komissiya üzvü və tərcüməçi kimi iştirak edir. Yubiley münasibətilə Gənc Tamaşaçılar teatrında "Fitnə" oynanılır. Jeleznovodska müalicəyə gedir.

1948 – S.Sani dostluğunun 4 illiyi münasibətilə "Qaraca qızı" səhnələşdirir. Moskvada SSRİ Ali Sovetinin sessiyasında olur. Jeleznovodska gedir."Seçilmiş əsərləri" və "Qoçpolad" çapdan çıxır.

1949-1950- Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətində baş referent işləyir."Təbriz", "Sülh və azadlıq düşmənlərinə", "Timsah ovu" əsərlərini yazır.

1951-1952- Anadan olmasının 70 illiyi qeyd olunur. "Qoşqar" poeması və yenidən "Araz" romanı üzərində işləyir.

1953 – "Köhnə dünya" xatirələrini yazır. Gənc Tamaşaçılar Teatrının 25 illik yubileyində iştirak edir.

1954 – "Xatirələr" "Azərbaycan" jurnalında hissə buraxılır. SSRİ xalq artisti M.Əliyevin ölümü münasibətilə "Həqiqi sənətkar ölməzdir" xatirəsini yazır.

1955- Ümumdünya Sülh Şurasının müraciətinə cavab olaraq "Mən sülhə səs verirəm", "Kommunist" qəzetinin 10000-ci nömrəsi münasibət ilə "10000" məqaləsini yazır. "Vəzifə" adlı pyes üzərində işləyir.

1956 – SSRİ Ali Sovetinin deputatı seçilir. Anadan olmasının 75 illiyi ilə əlaqədar olaraq Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilir."Qabaqcıl maarif xadimi" adı verilir. S.Vurğunun 50 illik yubileyi və vəfatı münasibətilə xatirələr yazır.

1957 – Moskva SSRİ Ali Sovetinin sessiyasında iştirak edir. Üç cilddən ibarət "Seçilmiş əsərləri"nin I cildi çapdan çıxır. Nəsrlə silsilə təmsillər üzərində işləyir.

1958 – Köhnə müəllim dostu, sonralar Litva Elmlər Akademiyasının prezidenti və Litva SSR Ali Soveti Rəyasət heyətinin sədri V. Miskeviçus haqqında xatirələrini yazır. "Bir saat xəlifəlik" komediyası tamaşaya qoyulur.

1959, 24 iyul- Abdulla Şaiq vəfat edir.

1960 – Üçcildliyin II, III cildləri çapdan çıxır.

1966 – 1978 – A.Şaiqin beş cilddən ibarət külliyyatı nəşr olunur.

1981 – Şaiqin anadan olmasının 100 illik yubileyi keçirilir.

2011- A.Şaiqin anadan olmasının 130 illik yubileyi keçirilir.

## III
## Görkəmli adamlar Abdulla Şaiq haqqında:

- Abdulla Şaiq lirik nəsrimizin təməl daşını qoymuşdur.

**Mehdi Hüseyn Xalq yazıçısı**

- Abdulla Şaiqin müxtəlif yaşlı uşaqlar üçün yazdığı bir çox əsərlər bizim milli ədəbiyyatımızda misli və bərabəri olmayan ən gözəl nümunələrdir.
- Abdulla Şaiq həqiqəti hər şeydən uca tutan, daima həqiqət axtaran, tərəqqi və yüksəliş yolunda fədakarcasına çalışan yazıçı olmuşdur.

**Mirzə İbrahimov Xalq yazıçısı**

- Abdulla Şaiqin nəcib həyatı bir çıraq kimi həmişə xalq üçün yanmışdır. Bu çırağın işığında uşaqların da, böyüklərin də qəlbində yalnız xeyirxah duyğular, xehirxah arzular baş qaldırmışdır.

**İlyas Əfəndiyev Xalq yazıçısı**

- Xalqını nəcib bir oğul qəlbi ilə sevən sənətkar öz xalqının ürəyində əbədi yaşayacaqdır.

**Süleyman Rüstəm Xalq şairi**

- Abdulla Şaiq mənəviyyatı pak, daxili təmiz, rəftarı gözəl bir insan kimi xalqımızın qəlbində yaşayır, yaşayacaq da!

**Əfrasiyab Bədəlbəyli Xalq artisti**

- Məhəmməd Hadi özünün gurultulu, təmtəraqlı, Sabir həzv və məzhəkəvi şeirləri ilə əski ədəbiyyatı əsasından yıxıb, onun yerində yeni binanı tikdilər. Yeni ədəbiyyatın təməl daşını qoyanlardan birisi Abdulla Şaiqdir.

**Seyid Hüseyn yazıçı**

- Azərbaycan xalqının yarım əsrlik mədəni inkişaf tarixində elə bir böyük və ya kiçik hadisə yoxdur ki, A.Şaiqin orada iştirakı olmasın.

**Abbas Zamanov tənqidçi, ədəbiyyatşünas**

- Azərbaycan yazıçıları, alimləri, pedaqoqları arasında az adam tapılar ki, Abdulla Şaiqin tələbəsi olmasın.

**Mirmehdi Seyidzadə şair**

- Abdulla Şaiqin estetik və ədəbi irsi bir çox cəhətdən bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

**Midhət Ağamirov**

IV

## Abdulla Şaiqin əsərləri

**Azərbaycan dilində:**

1. Gülşən ədəbiyyat.- Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1910.- 79 s.
2. Uşaq gözlüyü.- Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1910.- 54 s.
3. Yaxşı arxa. Tülkü, qarğa, hacıleylək.- Bakı: Kaspi mətbəəsi, 1911.- 18 s.
4. Tıq-tıq xanım. Tülkü, qarğa, hacıleylək. - Bakı: Kaspi mətbəəsi, 1911.- 16 s.
5. Tülkü və xoruz.- Bakı: Kaspi mətbəəsi, 1911.- 15 s.
6. Uşaq gözlüyü. - Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1911.- 56 s.
7. Bədbəxt ailə.- Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1912.- 42 s.
8. Gözəl bahar pyesi. -Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1912.- 34 s.
9. Gülzar qiraət kitabı. - Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1912.-34 s.
10. Kimdir haqlı?: Pyes.- Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1913.-39 s.
11. Murad. - Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1913.- 15 s.
12. Ürək tikmək, yaxud Qurban bayramı.- Bakı: Kaspi mətbəəsi, 1913.- 14 s.
13. Şələquyruq.- Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1913.-16 s.
14. Uşaq gözlüyü. - Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1915.- 57 s.
15. Uşaq gözlüyü.- Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1917.- 57 s.
16. Ədəbiyyat dərsləri.- Bakı: Hökumət mətbəəsi, 1919.-134 s. (Hüseyn Cavidlə birlikdə).
17. Milli qiraət kitabı.- Bakı: Hökumət mətbəəsi, 1919.- 228 s.
18. Türk çələngi.- Bakı: Hökumət mətbəəsi, 1919.- 405 s.
19. Uşaq gözlüyü.- Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1919.- 57 s.
20. Vətən. - Bakı: Birinci hökumət mətbəəsi, 1919.- 30 s.
21. Şələquyruq: İkinci nəşri .- Bakı: Azərnəşr, 1921.-110 s.
22. Milli qiraət (ikinci təbi). -Bakı: Azərnəşr, 1922.- 232 s.
23. Qiraət kitabı.- Bakı: Azərnəşr, 1924.-145 s.

24. Türk dili (Uşaq gözlüyü).- Bakı: Azərnəşr, 1924.- 80 s.
25. Türk ədəbiyyatı.- Bakı: Azərnəşr, 1924.- 334 s.
26. Qiraət kitabı.- Bakı: Yeni türk əlifbası komitəsi, 1925.- 167 s.
27. Anabacı.- Bakı: Azərnəşr, 1926.- 16 s.
28. Göbələk.- Bakı: Uşaqgəncnəşr, 1926.- 15 s.
29. İldırım.- Bakı: Azərnəşr, 1926.- 91 s.
30. Məktub yetişmədi.- Bakı: Azərnəşr, 1926.- 22 s.
31. Müəllim (hekayə).- Bakı: Azərnəşr, 1926.-38 s.
32.Tülkü həccə gedir.- Bakı: Azərnəşr, 1927.- 40 s.
33. Dördüncü il (dərslik). - Bakı: Azərnəşr, 1929.-176 s.
34. Dördüncü il (dərslik).- Bakı: Azərnəşr, 1930.-176 s..
35. Eşşək üstündə səyahət.- Bakı: Azərnəşr, 1933.- 10 s.
36. Seçilmiş hekayələr.- Bakı: Azərnəşr, 1933.-180 s.
37. Çocuq şeirləri.- Bakı: Azərnəşr, 1934.- 16 s.
38. Oyunçu bağalar.- Bakı: Azərnəşr, 1934.- 28 s.
39. Oyunçu bağalar.- Bakı: Azərnəşr, 1936.- 40 s.
40. Seçilmiş əsərləri.- Bakı: Azərnəşr, 1936.- 270 s.
41. Tülkü həccə gedir.- Bakı: Azərnəşr, 1936.- 20 s.
42. Məktub yetişmədi.- Bakı: Azərnəşr, 1937.- 16 s.
43. Tapdıq dədə.- Bakı: Uşaqgəncnəşr, 1939.- 39 s.
44. Yaxşı arxa.- Bakı: Uşaqgəncnəşr, 1939.- 28 s.
45. Araz : roman.- Bakı: Azərnəşr, 1940.- 274 s.
46. Tıq-tıq xanım.- Bakı: Uşaqgəncnəşr, 1942.-10 s.
47. Nağıllar.- Bakı: Uşaqgəncnəşr, 1945,.-54 s.
48. Ovçu Məstan.- Bakı: Uşaqgəncnəşr, 1945.- 23 s.
49. Qoç Polad. - Bakı: Uşaqgəncnəşr, 1946, 76 s.
50. Nüşabə.- Bakı: Uşaqgəncnəşr, 1947.-12 s.
51. Seçilmiş əsərləri.- Bakı: Azərnəşr, 1948.- 428 s.

52. Şeirlər, nağıllar. - Bakı: Uşaqgəncnəşr, 1948.-32 s.
53. Məktub yetişmədi.-Bakı: Uşaqgəncnəşr, 1949, 12 s.
54. Köç.- Bakı: Uşaqgəncnəşr, 1950.- 32 s.
55. Şeirlər və hekayələr.- Bakı: Uşaqgəncnəşr, 1950.- 80 s.
56. Araz.- Bakı: Uşaqgəncnəşr, 1954.-172 s.
57. Seçilmiş əsərləri. Üç cilddə. I cild.- Bakı: Azərnəşr, 1955.- 444 s.
58. Seçilmiş əsərləri . Üç cilddə. II cild. - Bakı: Azərnəşr, 1957.- 456 s.
59. Seçilmiş əsərləri . Üç cilddə. III cild. - Bakı: Azərnəşr, 1959.- 528 s.
60. Şeirlər və hekayələr.- Bakı: Uşaqgəncnəşr, 1959. - 112 s.
61. Tülkü həccə gedir. - Bakı: Uşaqgəncnəşr, 1959.- 16 s.
62. Seçilmiş əsərləri. - Bakı: Azərnəşr, 1960. - 480 s.
63. Xatirələrim.- Bakı: Uşaqgəncnəşr, 1961.- 224 s.
64. Qoç Polad.- Bakı: Uşaqgəncnəşr, 1962.- 88 s.
65. Bənövşə.- Bakı: Azərnəşr, 1964.-14 s.
66. Pirin kəraməti.- Bakı: Azərnəşr, 1965.- 39 s.
67. Əsərləri. Beş cilddə. I cild.- Bakı: Azərnəşr, 1966.- 555 s.
68. Tıq-tıq xanım. - Bakı: Uşaqgəncnəşr, 1966.- 16 s.
69. Şələquyruq. - Bakı: Azərnəşr, 1966. - 23 s.
70. Yaxşı arxa.- Bakı: Maarif, 1966.- 46 s.
71. Əsərləri. Beş cilddə. II cild.- Bakı: Azərnəşr, 1968.- 602 s.
72. Gözəl bahar.- Bakı: Gənclik, 1968.- 27 s.
73. Tülkü həccə gedir.- Bakı: Gənclik, 1968.- 16 s.
74. Araz. - Bakı: Gənclik, 1969.- 198 s.
75. Tıq-tıq xanım. - Bakı: Gənclik, 1970.- 16 s.
76. Yaxşı arxa.- Bakı: Gənclik, 1971.- 16 s.
77. Əsərləri. Beş cilddə. III cild.- Bakı: Azərnəşr, 1972.- 652 s.
78. Araz.- Bakı: Gənclik, 1973.- 199 s.

79. Xatirələrim.- Bakı: Gənclik, 1973.- 364 s.
80. Şeirlər, poemalar, təmsillər.- Bakı: Gənclik, 1976.- 21 s.
81. Əsərləri. Beş cilddə. IV cild. - Bakı: Azərnəşr, 1977.- 776 s.
82. Qoçpolad. - Bakı: Gənclik, 1977.- 264 s.
83. Əsərləri. Beş cilddə. V cild. - Bakı: Azərnəşr, 1978.- 502 s.
84. Araz.- Bakı: Gənclik, 1980.- 196 s.
85. Seçilmiş əsərləri. - Bakı: Gənclik, 1984.- 444 s.
86. Ana yurdum; Təmizlik: Kür çayı: Xoruz: Keçi / Yusifoğlu Rafiq. Uşaq ədəbiyyatı.- Bakı: Şirvannəşr, 2002.- S.66-73.
87. Arazdan Turana / tərt. və qeydlərin müəllifi: M. Əsədli; elmi red. və ön sözün müəllifi: K. Talıbzadə; AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.-Bakı: Nurlan, 2003.- 264 s.
88. Azərbaycan uşaq ədəbiyyatı antologiyası. Üç cilddə. III cild.- Bakı: Öndər nəşriyyat , 2005. - S.73-99.
89. Seçilmiş əsərləri. Üç cilddə. I cild.- Bakı: Avrasiya Press, 2005.- 496 s.
90. Seçilmiş əsərləri. Üç cilddə. II cild.- Bakı: Avrasiya Press, 2005.- 568 s.
91. Seçilmiş əsərləri. Üç cilddə. III cild .- Bakı: Avrasiya Press, 2005.- 536 s.
92. İntiqamçı Xoruz /Azərbaycan dramaturgiyası antologiyası. Beş cilddə. I cild.– Bakı: Şərq-Qərb, 2007. - 472 s.

## IV
## Abdulla Şaiqin tərcümələri:

93. Krılov, İvan Andreyeviç. Təmsillər / İ. A. Krılov; tərc.: A. Şaiq. - Bakı: Şərq-Qərb, 2006. - 144 s.
94. Krılov, İvan Andreyeviç. Cırcırama və qarışqa.- Bakı: Gənclik, 1976.- 13 s.
95. NizamiGəncəvi. İskəndərnamə. Şərəfnamə / Nizami Gəncəvi ; tərc. A. Şaiq ; elmi red. X. H. Yusifli.- Təkrar nəşr.- Bakı: Lider nəşriyyat, 2004.- 432 s.
96. Nizami. Sehrli üzük.- Bakı: Gənclik, 1971.-15 s.
97. Svift C. Qulliver liliputlarda / C. Svift; çevirəni: Abdulla Şaiq; red. M. Seyidzadə. - Bakı: Azərnəşr, 1935.-18 s.

## V

## Abdulla Şaiqin həyat və yaradıcılığı haqqında kitablarda:

98. Abdulla Şaiq (Abdulla Mustafa oğlu Talıbzadə 1881-1959) / Novruz bayramı ensiklopediyası.- Bakı: Şərq-Qərb, 2008.-S.27-28.

99. Abdulla Şaiq. Ana yurdum; Təmizlik: Kür çayı: Xoruz: Keçi / Yusifoğlu Rafiq. Uşaq ədəbiyyatı.- Bakı: Şirvannəşr, 2006.-S.66-73.

100. Abdulla Şaiq / Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə I cild.- Bakı: Lider nəşriyyatı, 2004.- S.97-98.

101. Abdulla Şaiq / Azərbaycan Sovet Ensiklopediyası. On cilddə. I cild.- Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası, 1976.-S.16.

102. Abdulla Şaiq / Azərbaycan yazıçılarının həyatından dəqiqələr.- Bakı: Gənclik, 1971.-S. 108-111.

103. Abdulla Şaiq / Cəlil Məmmədquluzadə Ensiklopediyası.- Bakı: Şərq Qərb, 2008.-S.41.

104. Abdulla Şaiq /red. K. Məmmədov Məmmədov, Əflatun Yunus oğlu. (Saraçlı).- Bakı: Gənclik, 1983.- 206 s.

105. Abdulla Şaiq / Uşaq Ensiklopediyası. Uç cilddə. III cild.- Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası, 1987.-S.8.

106. Abdulla Şaiqin Mənzil Muzeyi : 1991-2011: toplu / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Aspoliqraf, 2011.- 160 s.

107. Abdulla Şaiqin sözlərinə bəstələnmiş musiqi əsərləri / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Bakı : Aspoliqraf, 2011. - 272 s.

108. Abdulla Şaiq Talıbzadə: Pedaqoji və ədəbi fəaliyyətinin iyirmi illiyi münasibətilə Azərbaycan Ali Pedaqoji İnstitutu nəzdində iki dərəcəli “Şaiq Nümunə Məktəbi”nin təşəbbüsü ilə tərtib edilmiş “Şaiq Gecəsi”ndən bir xatirə / Ərəb əlifbasından müasir yazı qrafikasına çevirən: M.R. Əsədli: red.: K. Talıbzadə;

AMEA Dədə Qorqud adına "Folklor" Elmi-Mədəni Mərkəzi.- Bakı: Ağrıdağ, 2001.-68 s.

109. Ağamirov, Midhət. Abdulla Şaiqin dünyagörüşü / M. Ağamirov.- Bakı: Maarif nəşriyyatı, 1983.-244s.
110. Ağayev, Müstəqil**.** Azərbaycan demokratik fikrində insan konsepsiyası : monoqrafiya / M. B. Ağayev. - Bakı : Nurlan, 2009. - 208 s.
111. Bayramoğlu, Alxan. Talıbzadə Abdulla Şaiq / Bayramov Alxan. Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat.- Bakı: Elm, 2003.- S.150-161.
112. Cəfər Məmməd. Seçilmiş əsərləri. Üç clddə. II cild.- Bakı: "ÇİNAR-ÇAP" nəşriyyatı, 2003.- 281 s.
113. Əhmədov, Bədirxan Balaca oğlu. XX əsr Azərbaycan ədəbiyyatı tarixi : 3 cilddə.
114. I cild: dərslik / B. B. Əhmədov ; Bakı Slavyan Universiteti. I cild. - Bakı : Elm və Təhsil, 2011. - 480 s.
115. Əgər Şaiq olmasaydı : məqalələr, məruzələr, xatirələr / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Abdulla Şaiqin Mənzil Muzeyi.- Bakı : Təhsil, 2012. - 248 s.
116. Əhmədov, Bədirxan. Abdulla Şaiq / B. Əhmədov. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə. I cild: icmallar, təhlilər, portretlər.- Bakı: Elm və təhsil, 2001.- S.211-224.
117. Əhmədov, Teymur Əkbər. Abdulla Şaiq: kitab-albom / T. Əhmədov.- Bakı : "E.L." NPŞ MMC, 2009. - 120 s.
118. Əhmədov, Teymur. Şaiq Abdulla / T. Əhmədov. XX əsr Azərbaycan yazıçıları.- Bakı: Nurlar, 2004.- S.25-27.
119. Əlimirzəyev, Xalid. Vətənpərvər şair / X. Əlimirzəyev. Bədii həqiqət uğrunda.- Bakı: Yazıçı, 1984.- S.83.

120. Əlioğlu, Məsud. A.Şaiqin romantikası və romantik qəhrəmanları / Əlioğlu Məsud. Darıxan adamlar. I cild.- Bakı: Təhsil, 2009.-S.170-184.
121. Əlioğlu, Məsud. Darıxan adamlar: toplu. I cild / M. Əlioğlu.- Bakı: Təhsil, 2009.-784 s.
122. Əsədli, Minəxanım. Abdulla Şaiq və teatr: 1910-1958 / M. Əsədli; elmi red. və ön sözün müəllifi: K. Talıbzadə.- Bakı: Nurlan, 2003.-154 s.
123. Əzizov, Əbdül. Abdulla Şaiq / Ə. Əzizov. Uşaqların sevimliləri.- Bakı: Gənclik, 1978.-S.107-125.
124. Folklor və ədəbiyyat.- Bakı: Nurlan, 2013.- 236 s.
125. Hacıyev, Aydın. Abdulla Şaiq Talıbzadə (1881-1959) / Hacıyev A. Azər-baycan uşaq ədəbiyyatı tarixi.- Bakı: Təhsil, 2004.-S.102-112.
126. Həbibbəyli, İsa. Abdulla Şaiq / Həbibbəyli İsa. XX əsrin əvvəlləri Azərbaycan yazıçıları.- Bakı: Elm, 2004. – S.102-105.
127. Həbibov, İsa. Romantik lirikanın imkanları.- Bakı: Yazıçı, 1984- 167 s.
128. Xəlilova, Tamilla. Abdulla Şaiqin tərcümə yaradıcılığı / T. Xəlilova.- Bakı: Yazıçı, 1982.- 180 s.
129. İsmayılov, Yaqub. Abdulla Şaiq / Y. İsmayılov.- Bakı: AMEA-nın Nəşriyyatı, 1962.- 212 s.
130. Kərimov, İnqilab. Abdulla Şaiq və teatr 80 / İ. Kərimov.- Bakı: Azərbaycan Teatr Cəmiyyəti,1961.- 52 s.
131. Məmmədov, Əflatun. Abdulla Şaiq / Ə. Məmmədov.- Bakı: Gənclik, 1983.- 212 s.
132. Məmmədova, Dilarə. Abdulla Şaiqin əsərlərində vətənpərvərliyin tərənnümü Abdulla Şaiq-130 / D. Məmmədova // Azərbaycan.- 2011.- №6.- S.174-178.
133. Mirəhmədov, Əziz. Abdulla Şaiq.- Bakı: AEA-nın Nəşriyyatı, 1956.-144s.
134. Mirəhmədov, Əziz. Abdulla Şaiq və mollanəsrəddinçilər / Ə. Mirəhmədov. Azərbaycan ədəbiyyayyatına dair tədqiqlər.- Bakı: Maarif nəşriyyatı, 1983.-S.334-342.

135. Namazov Qara. Abdulla Şaiq Talıbzadə / Q. Namazov. Azərbaycan-uşaq ədəbiyyatı, 2007.-S.166-200.

136. Orucəli H. Abdulla Şaiq / H. Orucəli. Ədəbiyyat və zaman.- Bakı: Azərnəşr, 1971.-S.29-34.

137. Osmanlı Vəli. Abdulla Şaiq / V. Osmanlı. Azərbaycan romantikləri.- Bakı: Yazıçı, 1985.- S.96-144.

138. Paşayev, Mir Cəlal. Abdulla Şaiq Talıbzadə.Tərcümeyi-halı. Yaradıcılığı. Nəsri / M. C. Paşayev Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905-1917).- Bakı: Ziya-Nurlan, 2004.- S.333-341.

139. Saraclı Əflatun. Abdulla Şaiq Talıbzadə / Ə. Saraclı. Azərbaycan yazıçıları cümhuriyyət dövründə.- Bakı: Elm.- S. 74-118.

140. Seyidzadə M. Böyük ədib, yorulmaz maarif xadimi / M. Seyidzadə.- Bakı: Gənclik, 195.-S.11-17.

141. Süleymanlı Şamil. Abdulla Şaiq (1881-1959) / Süleymanlı Şamil. Azərbaycan ədəbiyyatı ensiklopediyası. I cild: Ən qədim dövrdən 1920 - ci ilədək.- Bakı: Nağıl evi, 2008.-S.286-291.

142. Şaiq Abdulla (1881-1959) / Azərbaycan yazıçıları: XX-XXI yüzillikdə.- Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.-S.25-27.

143. Şamiloğlu, Sarvan. Arazdan Turana / Abdulla Şaiq; tərt. və qeydlərin müəllifi: M. Əsədli; elmi red. və ön sözün müəllifi: K. Talıbzadə; AMEA, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.- Bakı: Nurlan , 2003. -
264 s.

144. Zamanov, Abbas. Abdulla Şaiq / A. Zamanov.- Bakı,1956.- 22 s.

145. Zamanov, Abbas. Abdulla Şaiq / A.Zamanov. Əməl dostları.- Bakı: Yazıçı, 1979.-S.213.-229.

146. Cavid, Hüseyn. Ədəbiyyat dərsləri : dərslik / H. Cavid, A. Şaiq. - Bakı : Çaşı-oğlu, 2010. - 208 s.

## VI
## Dövri mətbuatda:

147. "Abdulla Şaiq-135, ana dilimiz milli sərvətimizdir" adlı tədbir keçirilib // Palitra.-2016.- 19 fevral.- S.13.

148. Azəri Lalə. Abdulla Şaiq zirvəsinə gedən yol / L. Azəri // Mədəniyyət.-2015.- 4 mart.-S.14.

149. Abbaslı, Tahir. 78 illik ömür, 55 illik milli xidmət / T. Abbaslı // Mədəniyyət.- 2015.- 25 fevral.- № 15. - S. 13.

150. Hacızadə Ə. Abdulla Şaiq yad edildi / Ə. Hacızadə // Ədəbiyyat qəzeti.-2013.- 30 mart.-S.5.

151. Cəlaloğlu, Sərdar. Azərbaycan Cümhuriyyətinin tərənnümçüləri: Əhməd Cavad, Abdulla Şaiq və Cəfər Cabbarlı: Azərbaycan Türkcülüyu ideyası / S. Cəlaloğlu // Türküstan.-2012.-21-27 oktyabr.- S.11.

152. Məmmədova, Dilarə. Abdulla Şaiqin əsərlərində vətənpərvərliyin tərənnümü Abdulla Şaiq-130 / D. Məmmədova // Azərbaycan.-2011.-№11.-S.174-178.

153. Mehdizadə, İntiqam. Abdulla Şaiq ocağl / İ. Mehdizadə // Azərbaycan. - 2011.- № 10. - S. 147-151 . - Qeyd: Bu gün dünəndən başlayır silsiləsindən.

154. Yusifoğlu, Rafiq. Uşaq ədəbiyyatımıza bir nəzər / R.Yusifoğlu // Ədəbiyyat qəzeti.- 2011.- 20 yanvar.- № 2.- S. 5.

155. Məmmədova D. Abdulla Şaiqin əsərlərində vətənpərvərliyin tərənnümü: Abdulla Şaiq-130 / D. Məmmədova // Azərbaycan.- 2011.- №6.-S.174-178.

156. Bayramov, Adilxan. Xatirələrdə yaşayan sənətkar / A. Bayramov // Mədəniyyət. - 2011.-13 aprel. - №25. - S. 14.

157. Rzalı, Rəsmiyyə. Uşaq ədəbiyyatının inkişafı diqqət tələb edir / R. Rzalı // Azərbaycan. - 2011. - 30 aprel. - № 92. - S. 7.

158. İlyasoğlu R. Unudulmaz ədibin yubiley tədbiri: Abdulla Şaiq-130 / R.İlyasoğlu // Respublika.-2011.- 12 mart .- №56.- S. 5.

159. İlyasoğlu, Rauf. Unudulmaz ədibin yubiley tədbiri / R. İlyasoğlu // Respublika.- 2011.-12 mart. - . - S. 5.

160. Nəbiyev B. Nur kündəsinin şəfəqləri: Abdulla Şaiq fenomeni / B. Nəbiyev // Ədəbiyyat qəzeti.-2011.- 11 mart.- S.1, 2.

161. Bayramoğlu A. Abdulla Şaiq qayğıkeşliyi: Axtarışlar, tapıntılar /A. Bayramoğlu// Ədəbiyyat qəzeti..-2011.- 4 mart.- S.3.

162. Abdulla Şaiq / T. Abbaslı // Mədəniyyət.- 2012.- 2 mart.- №15.- S.10.

163. Xatun. Abdulla Şaiq-130: "Tülkü həccə gedir" miniatür kitab şəklində / Xatun //Ayna.-2011.- 26 fevral.- S.20.

164. Xəlilzadə, Flora. Köhnəlməyən şeirlər / F. Xəlilzadə // Azərbaycan. - 2011.- fevral. - №43. - S. 7.

165. Novruzov, Vasif. Abdulla Şaiqin cümhuriyyət dövrü yaradıcılığına kulturoloji bir baxış / V. Novruzov // Qobustan. - 2011. - № 2.- S.6-10.- Qeyd: Yazıçı Abdulla Şaiqin anadan olmasının 130 illik yubileyi.

166. Ana dili kimi şirin və gözəl...: uşaq nağıllarımızın qəhrəmanı Abdulla Şaiq // Azadlıq.-2011.- 14 yanvar.- S. 15.

167. Abbaslı, Tahir. Maarifçi-şair, şair-maarifçi: Hər sahənin ağsaqqalı Abdulla Şaiq.- Mədəniyyət.-2012.-2 mart.-S.10

168. Talıbzadə, Kamal. Həmişə yadımda olan insan / K. Talıbzadə // Qarapapaqlar.-2010.- №8.- S. 21-35. - Qeyd: XX əsr Azərbaycan yazıçısı Abdulla Şaiq haqqında oğlu akademik Kamal Talıbzadənin 45 il öncə atası haqqında yazdığı xatirələr.

169. Vətənin romantik təsviri: Abdulla Şaiq -120 / V.Osmanlı // Azərbaycan.- 2001.-4 dekabr.-S.4.

VII

# Абдулла Шаиг (1881-1959)

Абдулла Шаиг известен как первый детский писатель в Азербайджане. Его стихотворные сказки «Тыг-тыг ханум», «Хороший друг», «Лиса — паломница», пьесы "Хорошая весна", "Пастух" и другие были и остаются любимыми произведениями азербайджанских детей.

Абдулла Шаиг родился 24 февраля 1881 года в Тбилиси в семье духовного лица. Начальное образование он получил в шестиклассной тбилисской школе. Там он изучил русский и персидский языки.В 1893 году семья переехала в Иран, где Абдулла продолжил свое образование. Прожив в Иране около восьми лет, Абдулла Шаиг возвращается в Тифлис, а позже вместе с семьёй переезжает в Баку.

В Баку Абдулла Шаиг сам изучает русский язык и сдает экзамен на должность учителя русско-татарских (азербайджанских) школ. Свою педагогическую деятельность Абдулла Шаиг совмещает с литературным творчеством. В Баку Шаиг активно трудится в области просвещения, пишет учебники, составляет школьные программы, хрестоматии.
Переводы, поэзия, драматургия, проза… Редко кто из писателей берется за все эти жанры, а вот у Абдуллы Шаига прекрасно получалось работать и с переводами, и заниматься своим собственным разножанровым творчеством.

Печататься он начал с 1906 года. В это время им были написаны пьесы, рассказы, стихи и поэмы. В начале 20-х годов XX века Шаиг преподает в школах, пишет стихи и рассказы, печатает пьесу "Ильдрым" ("Молния"). В эти же годы он завершает написание новой пьесы "Обманутые звезды" по одноименной повести М.Ф.Ахундова. Позднее Абдулла Шаиг создает свой известный роман "Араз", поэмы "Гоч-Полад", "Дед Тапдыг", "Труд и красота" и другие.

Начиная с 1938 года, на сцене театра Юного зрителя с успехом шли пьесы Абдуллы Шаига "Хасай", "Эль-оглы" и другие. В том же году была издана книга Абдуллы Шаига, в которую были включены переводы 97 басен Крылова. В 1946 году на сцене Азербайджанского драматического театра была поставлена пьеса Абдуллы Шаига «Нушабэ».

Произведения Абдуллы Шаига неоднократно издавались на азербайджанском языке, переводились на русский, грузинский, узбекский и другие языки. Сам он тоже много переводил на азербайджанский язык произведения Низами Гянджеви, Фирдоуси, Саади, Руми, Шекспира, Крылова, Пушкина, Лермонтова, Некрасова, Чехова, Горького и других.

Скончался Абдулла Шаиг 24 июля 1959 года в возрасте 78 лет в Баку. Созданный в 1931 году Азербайджанский Государственный Театр Кукол с 1974 года носит его имя. В 1990 году в Баку создан Дом-музей Абдуллы Шаига. Музей расположен в одной из квартир здания, где в свое время жили литератор и его семья.

**Произведения Абдуллы Шаига на русском языке:**

170. Избранное.- Баку: Азербайджанское Государственное Издательство, 1959.- 202 с.
171. Письмо не дошло.- Баку: Азербайджанское издательство детской и юношеской литературы, 1962.- 36 с.

**О нём:**

172. Абдулла Шаиг / Очерк истории Азербайджанской Советской литературы.-Москва: Издательство АНН ССР,1963.- С.343-358.
173. Алышанлы Ширindил. Романтизм: споры, истины / Ш. Алышанлы.- Баку: Элм, 2000.
-180 с.
174. Гаджиев А.А. Азербайджанский реализм / А.А. Гаджиев.- Баку: Язычы, 1984.-240 с.
175. Гулиев Гасан. Абдулла Шаиг (1881-1959) / Г. Гулиев. Азербайджанская литература: исторический очерк.- Баку: Нурлан, 2005.- С.177-180.
176. Гулиев Гасан. Абдулла Шаиг (1881-1959) / Г. Гулиев. Азербайджанская литература: исторический очерк.- Баку: Элм и тахсил, 2010.- С.149-152.
177. Мирахмедов Азиз. Поэт, призванный ревалюцией / А. Мирахмедов.- Баку: Азернешр, 1964.- 368 с.
178. Халил Захид. Детская литература Азербайджана: очерки / З.Халил.- Москва: Детская литература, 1987.- 221 с.

## VIII

## Abdulla Şaiq haqqında internet saytlarında:

az.wikipedia.org
portal.azeriland.com
anl.az

clb.az

qadinsayti.az

portal.azertag.az

great.az

meneviservetimiz.az

timeturk.com

edebiyyatdan.blogspot.com

**Tərtibçi :** **Böyük kitabxanaçı Məmmədova Tamella**

**Redaktor:** **Şöbə müdiri Şəfiyeva Səadət**

**Ünvan:**

**Az 1065, Yasamal rayonu, Bakı şəhəri**
**N.Nərimanov küç., 203**

**Əlaqə telefonları:**

**(+994 012) 538 02 47**
**538 54 57**
**538 93 54**

**www.ryl.az**